# “İlin kitabxanası” baxış-müsabiqəsi haqqında Əsasnamə

## 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə “İlin kitabxanası” baxış-müsabiqəsinin (sonrakı mətndə - Müsabiqə) keçirilməsinin məqsədlərini, vəzifələrini, qaydalarını və şərtlərini, Müsabiqə iştirakçılarının qiymətləndirilməsi meyarları və onlara təqdim edilən tələbləri, Müsabiqəyə yekun vurulması və qaliblərin mükafatlandırılması qaydalarını müəyyən edir.

1.2. Müsabiqə Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı» əsasında təşkil edilir. Təsisçi Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyidir.

1.3. Müsabiqənin maliyyələşdirilməsi Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr tarixli, 3072 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı», habelə Mədəniyyət və Turizm Nazirliyinin 569 nömrəli 18 noyabr 2008-ci il tarixli ”Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi barədə Sərəncamının icrası haqqında” Əmrinin icrası üçün nəzərdə tutulmuş vəsaitlər hesabına həyata keçirilir.

1.4. Müsabiqənin məqsəd və vəzifələrini dəstəkləyən hər hansı fiziki və hüquqi şəxslər Müsabiqənin əlavə maliyyələşdirilməsində iştirak edə bilərlər.

## 2. Müsabiqənin məqsəd və vəzifələri

2.1. Şəhərin, rayonun, kəndin həyatında kitabxanaların rolunun artırılması.

2.2. Azərbaycan Respublikasında kitabxanaçılarının yaradıcı potensialının inkişaf etdirilməsi.

2.3. Kitabxanaçı peşəsinə və bütövlükdə kitabxanaların fəaliyyətinə ictimaiyyətin və hakimiyyət orqanlarının diqqətinin cəlb edilməsi.

## 3. Müsabiqənin iştirakçıları

3.1. Müsabiqədə respublikanın bütün kitabxanaları iştirak edə bilər.

## 4. Müsabiqənin təşkil edilməsi

4.1. Təsisçi Müsabiqənin təşkili, keçirilməsi və ona yekun vurulması işlərinin həvalə edildiyi Müsabiqə Komissiyasının tərkibini formalaşdırır və təsdiq edir.

4.2. Müsabiqənin keçirilməsi müddətləri cari ilin mart ayından noyabr ayınadək müəyyən edilir.

4.3. Müsabiqə materialları AZLIBNET Mərkəzinin saytında (http://www.azlibnet.az) yerləşdirilir.

## 5. Müsabiqəyə yekun vurulması

5.1. Müsabiqəyə müəyyən edilmiş müddətdə Müsabiqə Komissiyasının iclasında yekun vurulur.

5.2. Müsabiqə Komissiyası hər nominasiya üzrə maksimum səs toplamış 3 (üç) işi əyani təqdim edilmək üçün seçir. Əgər müəyyən nominasiyada iştirak edən kitabxanalar

arasında eyni sayda maksimum səs toplamış iştirakçıların sayı üçdən çox olarsa, onda maksimum sayda bal toplamış bütün işlər Müsabiqəyə təqdim ediləcəkdir.

5.3. Müsabiqə Komissiyasının qərarı noyabr ayının 15-dən gec olmayaraq açıq səsvermə yolu ilə səslərin 2/3 hissəsinin çoxluğu ilə qəbul edilir və müvafiq protokolla rəsmiləşdirilir.

5.4. Müsabiqə Komissiyasının iclasının protokolu əsasında Mədəniyyət və Turizm Nazirliyinin əmri hazırlanır. Maliyyə vəsaitləri müqavilə üzrə şəhər (rayon) mədəniyyət və turizm şöbələrinin hesabına köçürülür, o isə həmin vəsaitləri Müsabiqədə qalib gəlmiş kitabxanalara təqdim edir.

5.5. Müsabiqənin şərtləri və nəticələri haqqında informasiya mətbuatda dərc edilir, Mədəniyyət və Turizm Nazirliyinin (http://www.mct.gov.az) və AZLİBNETin (http://www.azlibnet.az) saytında yerləşdirilir.

## 6. Müsabiqə nominasiyaları

- Şəhər (rayon) Mərkəzi kitabxanası;
- Şəhər (rayon) kitabxana filialı;
- Uşaq şöbəsi;
- Kənd kitabxana filialı.

## 7. Müsabiqə üçün sənədlərin təqdim edilməsi qaydası

7.1. Müsabiqəyə aşağıdakı sənədlər və materiallar təqdim edilir:

- Bu Əsasnaməyə müvafiq qaydada kağız və elektron daşıyıcılar şəklində hazırlanmış Müsabiqə işi (innovasiya proqramı);
- Kitabxananı Müsabiqəyə təqdim edən təşkilatın kollektivinin ümumi yığıncağının qərarından çıxarış;
- Proqramın məzmununu açıqlayan əlavə materiallar (təqdimatlar və s.);
- Müsabiqə üçün təqdim edilən əlavə materialların reyestri;
- Kitabxananın ünvanı, kitabxana rəhbərinin soyadı, adı və atasının adı;
- Pul vəsaitlərinin köçürülməsi üçün hesablaşma hesabının nömrəsi.

7.2. Materialların təqdim edilməsi müddəti **oktyabr ayının 1-dək** müəyyən edilmişdir. Bu müddət keçəndən sonra verilən sifarişlərə baxılmır və onlar dərc edilmir.

**Müsabiqəyə göndərilən materiallara rəy verilmir və onlar dərc edilmir.**

## 8. Müsabiqəyə təqdim edilən materiala tələblər

Müsabiqəyə kitabxanaların 2011-2013-cü illərdə oxuculara xidmətin yaxşılaşdırılmasına, kitabxanaların strukturunun təkmilləşdirilməsinə yönəlmiş innovasiya proqramları təqdim edilir.

Müsabiqə işlərində:

- Kitabxanaların fəaliyyətində istifadə edilən müasir kitabxana-informasiya (kitabxana və informasiya) texnologiyaları;
- Yerli cəmiyyətdə kitabxanaların fəaliyyətinin inkişafına kömək edən təşkilati fəaliyyət;
- Proqram üzrə fəaliyyətin proqnozu əks etdirilməlidir.

## 9. Müsabiqə nominasiyaları üzrə xüsusi tələblər

9.1. Müsabiqəyə təqdim edilən materiallar kitabxananın aşağıdakı fəaliyyətini əks

etdirməlidir:

9.1.1. **“Şəhər (rayon) Mərkəzi kitabxanası” nominasiyasında:**

- rayon kitabxanalarının mütəxəssislərinin peşəkar və yaradıcı potensialının inkişafına kömək edən sosiomədəni proqramlar;

9.1.2. **“Şəhər (rayon) kitabxana filialı” nominasiyasında:**

- şagirdlərin yaradıcı şəxsiyyətinin inkişafına kömək edən, təhsil müəssisələri ilə birgə fəaliyyət proqramları;

9.1.3. **“Uşaq şöbəsi” nominasiyasında:**

- uşaqların intellektual və mənəvi inkişaf tələbatının təmin edilməsi, uşaqlarda mütaliəyə, informasiyadan savadlı istifadə edilməsinə həvəs oyadan, uşaqların mütaliə fəaliyyətinə rəhbərlik edənlərlə qarşılıqlı fəaliyyət proqramları;

9.1.4. **“Kənd kitabxana filialı” nominasiyasında:**

- kitabxananın yerli cəmiyyətin mərkəzi kimi inkişafı proqramları.

## 10. Müsabiqəyə yekun vurulması. Qaliblərin mükafatlandırılması

10.1. “İlin kitabxanası” baxış-müsabiqəsinin qalibləri diplom və pul mükafatı ilə təltif olunurlar:

- “Şəhər (rayon) Mərkəzi kitabxanası” və “Şəhər (rayon) kitabxana filialı” – 1000 manat (2 müəssisə);
- “Uşaq şöbəsi” – 800 manat (3 müəssisə);
- “Kənd kitabxana filialı” – 500 manat (5 müəssisə).

10.2. Müsabiqənin mükafat fondunun həcmi «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı» müvafiq olaraq hər il təsdiq edilir.

10.3. Əlavə maliyyələşdirmə (sponsor vəsaitləri) olduqda Müsabiqənin qaliblərinin və iştirakçılarının həvəsləndirilməsinin başqa növləri də nəzərdə tutulur.

**Müsabiqə materialının təqdim ediləcəyi yer:**

Az 1000, Bakı şəhəri, Hökumət evi, III mərtəbə,
Mədəniyyət və Turizm Nazirliyi, Kitabxana sektoru (otaq 322)
“İlin kitabxanası müsabiqəsi”